# Qarabağda ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti:

# Xocalı soyqırımı




(əvvəli ötən sayımızda)

***...Xocalı soyqırımı xarici müşahidəçilərin gözü ilə; Xocalı soyqırımının vəhşiliyinin şahidi olan və sonralar Beyrutda məskunlaşan erməni jurnalist Daud Xeyriyan "For The Sake Of Cross" kitabına aşağıdakı sətirləri daxil edib.*** " ..Meyitlərin yandırılmasına rəhbərlik edən Qaflan adlı erməni dəstəsi martın 2-də 100 nəfər azərbaycanlı meyitini Xocalıdan 1 kilometr qərbdə bir yerə gətirib üst-üstə yığdı. Sonuncu yük maşınında təxminən 10 yaşında bir qız gördüm. O, başından və əlindən yaralanıb. Üzü göyərmişdi. Soyuqlara, yaralarına, aclığına baxmayaraq hələ də sağ idi. O, çətinliklə nəfəs ala bilirdi. Ölüm qorxusu gözlərini doldurdu. Bu zaman Tiqranyan adlı erməni əsgəri onu tutub digər meyitlərin üstünə atıb. Sonra bütün cəsədləri yandırdılar. Mənə elə gəldi ki, sanki yanan meyitlərin arasından qışqırıq eşitdim. Edə biləcəyim heç nə yox idi. Mən Şuşaya qayıtdım. Onlar Xaç uğrunda mübarizəyə davam etdilər". Bu sətirləri yazıb oxuduqca insanların barmaqları titrəyir, ürəkləri, vicdanları ağrıyır. Bəs bunu edənlər haqqında nə düşünürsünüz.[5]

İndependent, 29 Fevral 1992 Elen Vomak: Ağdamdakı Röyter müxbiri Elif Kaban məlumat vermişdir ki, çərşənbə qırğınından sonra azərbaycanlılar onlarla insan dəfn edirdilər, hansılar ki, bu bölgənin ikinci böyük yaşayış mərkəzi olan Xocalı şəhərinin ermənilər tərəfindən işğalı zaımını öldürülmüşdü. Dəfndə iştirak edənlərdən biri jurnalistlərin üstünə qışqıraraq demişdir: "Dünya burada baş verənlərə göz yumur. Biz ölürük, siz isə baxırsız".

Sandey Tayms, 1 mart 1992, Erməni əsgərləri yüzlərlə qaçqın ailəni qırır, Tomas Qolts, Ağdam, Azərbaycan; Dünən gecə Ağdam meyitxanasına 479 meyit gətirildi və qəbiristanlıqda 29 nəfər dəfn olundu. Mənim gördüyüm və hələ dəfn olunmamış 7 cənazənin 2-si uşaq, 3-ü isə qadın idi. Onlardan birinin sinəsi aldığı güllə yarasından tamamilə dağılmışdı. Ağdam xəstəxanası qan və terror səhnəsinə çevrilmişdi. Həkimlər bildirdi ki, soyqırımdan qaçan 140 xəstə dərin güllə yaralarından əziyyət çəkir.

Tayms, 2 Mart 1992, Qarabağda cənazə təpələri, Anatol Liven; erməni qoşunları tərəfindən həyata keçirilən kütləvi insan qırğını barədə məlumat toplayan zaman atəşə tutulub. Biz Qarabağın qarla örtülmüş dağlarından aşağı düşərkən səpələnmiş meyitləri gördük. Görünür, qaçqınlar qaçarkən onlara atəş açıblar. Bu hadisədən sonra jurnalistlər azərbaycanlı operator tərəfindən çəkilmiş kadrlara baxdılar. Kadrlarda bizim keçdiyimiz həmin dağların müxtəlif hissələrində onlarla insan cənazələri əks etdirildi. Azərbaycanlılar iddia edir ki, keçən həftə 4000-nəfər yaralanmış, donub ölmüş, yaxud itkin düşmüşdür. Mülki vertolyot dağlara enməli və kütləvi qırğınların törədildiyi yerlərdən meyitləri yığmalı idi. Mülki vertolyot 4 meyit yığdı. Həmin vaxt azərbaycanlı operatorun çəkdiyi filmdə isə həmin təpələrdə onlarla meyit göstərilirdi. Ağdama qayıdan zaman mülki vertolyotun yığdığı cənazələrə baxdıq. İki nəfər yaşlı kişi və kiçik bir qız qanına qəltan edilmiş, onların əlləri və ayaqları donmuşdu.

Vaşinqton Post, 2 Mart 1992, Erməni basqınları azərilərin ölümü və qaçqın düşməsi ilə nəticələnir; Xocalının 10.000 əhalisindən təxminən 1000 nəfəri erməni ordusunun çərşənbə axşamı həyata keçirdiyi hücum zamanı qətlə yetirilmişdir. Azərbaycan televiziyası Xocalı ərazisindən cənazələrin yük maşınları ilə evakuasiyasını göstərmişdir.

**Əfqan Vəliyev**
**Qərbi Azərbaycan Ziyalılar Şurasının üzvü**



***Nyu-York Tayms, 3 Mart 1992 Ermənilərin törətdiyi qırğın; Ağdam, Azərbaycan, 2 Mart (Röyters); Röyterin fotoqrafı Frederik Lenqan dedi ki o, Ağdam yaxınlığında azərbaycanlıların meyitlərinin iki yük maşınına doldurulduğunu görüb: "Birinci dəfə 35 meyit saydım və məncə ikinci maşında da bir o qədər meyit var idi. Onların bəzilərinin başı kəsilmiş, çoxları yandırılmışdı. Onların hamısı kişi idi və bir neçəsi hərbi rəngdə forma geymişdi".***

Anatol Liven, Tayms, 3 Mart 1992 İşıqlandırılmamış soyqırım; Qarabağın təpələrində qadın və uşaqlar daxil olmaqla 60-dan çox meyit səpələnmişdi və bunlar erməni qoşunlarının Azəri qaçqınlarına qarşı törətdiyi qırğını təsdiq edir. Yüzlərlə adam itkin düşüb, təpə və dərələr erməni qüvvələrinin azərbaycanlı qaçqınlara qarşı ötən çərşənbə axşamı törətdiyi soyqırım nəticəsində öldürülən insanların meyitləri ilə dolu idi. Burada 31 meyit var idi. Ən azı daha 31 cənazə ötən 5 gün ərzində Ağdama aparılmışdı. Meyitlərin ətrafında əşyalar, paltar və şəxsi sənədlər var idi. Cənazələr kəskin şaxtadan donmuş, həmçinin qırğından sonra təpə və meşələrdə gizlənmiş insanlar da soyuqdan ölmüşdü. Onların hamısı kasıb geyinmiş adi adamların cənazələri idi. Bizim gördüyümüz 31 nəfərdən yalnız 3 nəfər formada idi, hansılar ki, biri polis, ikisi isə milli könüllülər idi. Qalanları mülki şəxslər idi (8 qadın və 3 uşaq). İki ailə birlikdə öldürülmüşdü və burada qadınlar əliuşaqlı idi. Onlardan bir neçəsi başından dəhşətli yaralar almışdı: balaca bir qızın isə yalnız üzü salamat qalmışdı.

***BBS1 Morninq Nyus, saat 07.37, Çərşənbə Axşamı, 3 Mart 1992 Canlı yayımda olan BBS müxbiri xəbər vermişdir ki, o, 100-dən çox azərbaycanlı kişi, qadın, uşaq, hətta körpənin çox qısa məsafədən başlarından güllə ilə vurulduğunu görüb.***

BBS1 Morninq Nyus, saat 08. 12, Çərşənbə Axşamı, 3 Mart 1992 Hadisə yerində çəkilmiş şəkil dağlardan çoxlu sayda insan meyitlərinin yığılmasını təsdiq edir. Müxbir xəbər verir ki, operator və Qərbdən olan jurnalistlər ermənilərin qırdığı yüzdən çox kişi, qadın və uşaq meyitlərini görüblər. Onlar 1 metrdən də az məsafədən başlarından vurulmuşdu. Şəkildə həmçinin təxminən 10 nəfərin, bunlar əsasən qadınlar və uşaqlar idi, başından güllə ilə öldürüldüyü göstərilir.

Vaşinqton Tayms, 3 Mart 1992, vəhşiliklər Azərbaycanı dəhşətə gətirir. Brayn Killen, Ağdam, Azərbaycan Xocalıdan yenicə qayıdan Azərbaycan rəsmiləri özləri ilə 3 uşaq meyiti gətiriblər və onların başlarının arxa hissəsi tamamilə dağıdılıb. Yerli məsciddə daha 6 meyit var idi və onların əlləri və ayaqları donmuş, üzləri isə soyuqdan qaralmışdı. Cənazə arxası üstə uzanmış və sağ əli havada donmuşdu. Ötən həftə ermənilərin işğal etdiyi Xocalıya vertalyotla qısa səfərdən qayıdan bir rus jurnalistinin dediyinə görə o, 50 metrlik sahədə 30 meyit saymışdır. Azərbaycan 1000 nəfərin öldürüldüyünü deyir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin nişanladığı yerə enən və Mİ-24 vertolyotlarının müşayyət etdiyi vertolyot erməni hərbçiləri gülləborana başlamazdan əvvəl yalnız 3 uşaq meyidini yığa bilib. O bildirdi ki, biz meyitləri yığmağa başlayanda onlar bizi atəşə tutdular. Röytersin fotoqrafı Frederik Lenqan, Ağdam yaxınlığında azərbaycanlıların meyitləri ilə dolu iki yük maşını görmüşdür. "Birinci dəfə 35 meyit saydım və məncə ikinci maşında da bir o qədər meyit var idi. Onların bəzilərinin başı kəsilmiş, çoxları yandırılmışdı. Onların hamısı kişi idi və bir neçəsi hərbi rəngdə forma geyinmişdi". Ağdam məscidi insan meyidi ilə dolu idi. Qarlı təpələrə səpələnmiş onlarla insan meyitini əks etdirən dəhşətli film sağ qalmış qaçqınların, qadın və uşaqlara qarşı törədilmiş soyqırım haqqında söylədiklərini təsdiq edir. Azərbaycan televiziyası Azərbaycan şəhəri olan Ağdama bir yük maşını ilə meyit gətirildiyini göstərmişdir. Onların çoxlarının üzləri bıçaqla doğranmış, gözləri çıxarılmışdı. Balaca bir qızın qolları havaya açılı vəziyyətdə qalmışdır. O, sanki kömək diləyirdi. Operator və Qərbli jurnalistləri ərazidən götürən vertolyotun pilotu dedi ki, o Xocalıda və Əsgəran dərəsində onlarla meyit görüb.

Boston Qlob, 3 Mart 1992, Pol Kuin - Cac, Bakı, Azərbaycan;Röytersin fotoqrafı iki yük maşının azərbaycanlıların meyitləri ilə doldurulduğunu dedi. Bir rus jurnalisti isə rayonun hər yerində qırğınlar törəldiyi barədə xəbər verir. Röyters xəbər verir ki, vertolyotla bölgəyə səfər edən azərbaycanlı rəsmilər və jurnalistlər başlarından vurulmuş 3 uşaq meyiti tapıblar. Ermənilərin atəş açmağı isə onlara digər meyitləri yığmağa mane olub. İşğal zamanı Xocalıda çoxlu sayda dinc əhalinin öldürülməsini təsdiq edən faktlar get-gedə artır. BBS xəbər vermişdir ki, Fransız fotoqraf 31 cənazə saymışdır. O, bildirmişdir ki, içərisində qadın və uşaqlar olan meyitlərin çoxu yaxın məsafədən başlarından güllə ilə vurulmuşdur.

***Eyc, Melburn, 6 Mart 1992, Elen Vomak, Ağdam, Azərbaycan, Çərşənbə axşamı: Dünən mən qəbiristanlıqların birində təzə qazılmış 75 qəbir gördüm. Ondan bir gün əvvəl isə Ağdam məscidində deşik-deşik olunmuş 4 meyit görmüşdük. Biz həmçinin vaqonlardan ibarət olan müvəqqəti xəstəxanalarda güllə yaraları almış qadın və uşaqları gördük. Əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Azərbaycan qəsəbəsi Xocalının əhalisi təxminən 6000 nəfərdir...***

(ardı gələn sayımızda)